Qeyri-rəsmi tərcümə

**Bosniya və Herseqovinada qəbul olunmuş**

**"Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsi və dəstəklənməsi üzrə" Qətnamə**

Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsipləri, beynəlxalq hüququn norma və prinsipləri ilə istiqamətlənərək, Nümayəndələr Palatasının millət vəkilləri:

- Azərbaycan Respublikasının suverenliyinə və beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünə hörmət və dəstək göstərdiyini təsdiqləyir;
- Beynəlxalq təşkilatların bütün tövsiyə, qətnamə və bəyanatlarını, xüsusən də BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı və Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal edilmiş ərazilərindən dərhal, tam şəkildə və heç bir qeyd-şərt olmadan çıxarılmasını tələb edən dörd qətnaməsini (822, 853, 874 və 884 saylı) icra etməyə çağırır;
- Millətçi və etnik motivlərdə, xüsusən də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı Xocalı şəhərində mülki əhalinin kütləvi şəkildə qətlə yetirilməsini, insanlığa qarşı cinayət və millətlərin dinc şəkildə birgə yaşayışına təhdid kimi pisləyir və faciəvi münaqişənin qurbanlarının və onları ailə üzvlərinin kədərlərinə şərik çıxır;
- Regional təhdidlərin aradan qaldırılması və beynəlxalq sabitlik üçün zəmin yaratmaq məqsədilə öz əraziləri üzərində suverenliyin bərpası uğrunda Azərbaycan Respublikasının səylərini alqışlayır;
- ATƏT-in Minsk Qrupu çərçivəsində regionda davamlı sülh və sabitliyin əldə edilməsi üçün sülh prosesinin sürətləndirilməsinin zəruriliyini qeyd edir;
- Hökumət və qeyri-hökumət sektorları vasitəsilə yuxarıda qeyd olunan münaqişənin sülh yolu ilə həllinə nail olmağa töhfə verən səyləri dəstəkləyir və qanunun aliliyi, demokratiya, insan hüquqları və əsas azadlıqların universal sisteminə tam dəstəyini ifadə edir.